# Puşkinin "Tunc atlı" poemasında I Pyotrun obrazı

I Pyotrun islahatları və ya "Pyotr islahatları" Pyotrun şəxsiyyətində insani faktor olaraq nəhəng siyasi və tarixi əhəmiyyət kəsb etmişdir. Hökmdarın müasirləri bu tarixi hadisələri qələmə alır və qiymətləndirirdi. Lakin, bütün bu səyləri obyektiv hesab etmək olmazdı, ona görə də müəlliflər diqqəti islahatçının şəxsiyyətinə yönəldərək elmi-tarixi analizdən uzaqda dayanır və bu və ya başqa siyasi ideyaların bilavasitə təsiri altına düşürdülər.

"Pyotr islahatları əsri" təkcə siyasi fikir obyekti deyildi, eyni zamanda ədəbiyyatda Pyotr mövzusunun inkişafının ilkin mərhələsi idi. I Pyotrun şöhrət tapması əsrin ilk yarısının ədəbiyyatında əsas yer tuturdu. S.A.Mezinin araşdırmalarında qeyd olunduğu kimi I Pyotr özü və silahdaşları olan P.P.Safirov, F.Prokov və başqaları bu ədəbiyyatın astanasında dayanaraq, islahatlar haqqında Rusiya və onun sərhədlərindən kənarda uğurlu ictimai rəy yaratmağa çalışırdılar. O zamanın müəllifləri ölkənin tarixində islahatların məkanı haqqında rəylərini bölüşür və Pyotrun fəaliyyətində öz siyasi və tarixi əsaslarını qeydə alırdılar. Eyni zamanda, böyük imperatorun hələ həyatda olduğu zaman, onun şəxsiyyəti və dövlət fəaliyyətində taktikaları haqqında mübahisələrin səngimək bilməməsi faktını da diqqətdən kənarda qoymaq olmaz. Problemlər artıq XVIII əsrin əvvəllərindən göz önündə idi. Bu mövzuda Q.F.Millerin, F.O.Tumanskinin, S.S.Qolıkovın və başqalarının əsərlərində I Pyotrun fəaliyyətinin təsvirinə və qiymətləndirilməsinə həsr olunmuş qeydlərə rast gəlmək olar.

Rusiya imperatorunun tarixçisi qismində I Pyotrun yüzilliyi münasibəti ilə müəlliflərin olduqca həssas münasibətini qeyd edən böyük şair A.S.Puşkin də çıxış edib.

Böyük Pyotrun silahdaşları ilə birgə obrazı A.S.Puşkinin həyatına erkən yaşlarında, atasının Puşkinin Pyotr zamanında yaşamış əcdadları haqqında danışdıqları əsasında daxil olmuşdur: onlardan biri Pyotr əleyhinə silahlı birləşmədə iştirakına görə 1697-ci ildə edam olunan Fyodr Matveyeviç idi. Ana tərəfdən şairin ulu babası "Böyük Pyotrun ərəbi" olan İbrahim (Abram) Petroviç Hannibalın haqqında Puşkin ancaq onu şəxsən tanıyan adamlardan eşidə bilərdi. Onun oğlu Pyotr Abramoviçlə isə liseyi bitirdikdən sonra Mixaylovskiyə göndərildiyi zaman görüşmüşdür. Lakin Puşkinin yaradıcılığına Pyotr mövzusu 1826-cı ilin sonlarından daxil oldu, səbəblər arasında onu da göstərmək olar ki, onun liseydə təhsil aldığı zamanlarda 1812-ci il vətəndaş müharibəsi baş vermişdi.

Lakin daha yetkin yaşda A.S.Puşkin Pyotr şəxsiyyətinin əzəmətli miqyasını, onun Rusiya tarixində gedişinə təsirini tam mənada dərk edir və imperatorun həqiqi obrazını qələmə almaq qərarına gəlir. **Bu tarixi fiqurun dəyişkənliyini aydın şəkildə görən A.S.Puşkin "Stanslar" (şeir forması -X.N.) əsərində hökmdarın şəxsiyyətini "o həqiqətlə qəlbləri fəth edib", "xasiyyətini elmlə ört-basdır etdi", "maarifçiliyi cəsarətlə təbliğ etdi", "hər zaman fəhlə idi" ifadələri ilə mədh edirdi. "Poltava" poemasında şair göstərdi ki, XII Karlın məğlubiyyəti Poltavada tarixi müdrikliyi olan rus xalqının və hökumətinin nailiyyətlərinin nəticəsidir. "Böyük Pyotrun ziyafəti" şeirində I Pyotrun əfv və mərhəmət motivi şövqlə yazılıb. "Böyük Pyotrun ərəbi" şeirində A.S.Puşkin "yeni inşa olunan paytaxt"ın "bataqlıqdan çıxan" obrazını yaradır.** Burada bol məhsul vəd edən ilk bahar parıltıları görünür. Bu və başqa əsərlərə əsaslanan A.Q.Filonov özünün "A.S.Puşkinin əsərlərində Böyük Pyotr" məqaləsində deyirdi ki, I Pyotr haqqında hamıdan yaxşı yazmaq ancaq A.S.Puşkinə müvəffəq olub. Görünür, A.Q.Filonov ancaq hökmdarın obrazının ideallaşdırıldığı əsərləri analiz etmişdir. A.S.Puşkinin "Tunc atlı" poemasında Böyük Pyotr obrazına mürəkkəb münasibəti isə müəllifin diqqətindən kənarda qalmışdır.

"Tunc atlı" poemasında I Pyotr obrazının ikiləşməsi, daha dəqiqi, hətta şəxsi söhbətləri təsvir olunur. İlk təsvir imperator tərəfindən görülən işlərin nəhəng miqyasını özündə saxlayır.



Pyotr dövrünün ən əhəmiyyətli hadisələrindən biri Rus torpağında yaranan "düşmən ölkə" İsveç üzərində qələbənin nəticəsində inşa olunan və XVIII əsrin sonunda dünyanın ən gözəl şəhərlərindən birinə çevrilən Peterburq şəhərinin salınmasıdır.

Lakin, bu hökmdarın islahatları nəticəsində dövlətin məruz qaldığı zülmkarlığı, çoxlu sayda qurbanları da qeyd etmək vacibdir. Tədqiqatçılar bu faktı müxtəlif formada şərh edir, bəziləri bu qurbanları ölkənin köklü quruculuğu şərtləri altında qaçılmaz hesab edir.

V.Q.Belinski bir növ çarın xalqın tarixinin, adətlərinin, vərdişlərinin ziddinə olan islahatlarına bəraət qazandırır, onu haqlı hesab edir. V.Q.Belinskinin fikrincə o, dahi və əsl qəhrəman idi, daha doğrusu, millətin tarixinin labüd məsələlərini həyata keçirməyə müvəffəq olmuşdur, onun etdiklərinin mənəvi bəraəti də məhz budur. Bu cür halı V.Q.Belinski xalqın Pyotra münasibətində görür: "Ona şərtsiz itaət edən, onun fəaliyyətini müzakirə edən xalq, ondan narazı idi, lakin bununla belə, onu son damla qanını içməyə hazır olacaq qədər sevirdi". Hətta A.B.Perzeke də hesab edirdi ki, Peterburqun inşası və Rusiyanın yenidən qurulması Pyotrun Puşkin tərəfindən də dərk edilən zülmkarlığı, zorakılığı ilə, dövlətin marağı naminə çox sayda qurbanlarla əlaqədardır.

Əlbəttə ki, A.S.Puşkin dövrünün ictimai-siyasi şəraitində açıq şəkildə, birbaşa mətnlə fikirlərini çatdıra bilməzdi. A.Perzeke qeyd edir ki, "Tunc atlı"nın gələcək ideyasının konsepsiyası Puşkinin nəslində baş verən hadisələr əsasında yaranıb. Məhz burada Pyotrun ideallaşması yoxa çıxır və Yevgeni ilə Tunc atlının arasındakı konfliktin təməli qoyulur. Poemada qəfil sülh dövrü bitir, çarın təriflənməsi əvəzində onun fərsizliyini ön plana çəkir, rus reallığı miqyasında "atalar və oğullar" arasındakı mənfi münasibət təsvir olunur . N.V.İzmaylov Böyük Pyotrun şəxsiyyətinin qeyri-yeknəsəqliyinə diqqət edərək, onu "Fəaliyyətinin əsas istiqamətlərinin Rusiyanın xeyrinə yönəlməsi, dövlət marağının möhkəmlənməsi, gələcək vəzifələrin həyata keçməsinə istiqamətlənən islahatçı" adlandırır. Amma Pyotr zülmkardır, sərt hökmdardır. Xalqa məxsus tarixi əhəmiyyətli hər şeyi məhv edən, öz dəyişiklikləri yolunda əngəl olaraq gördüyü hər şeyi öz səbirsizliyi ilə yox edən Pyotr bu və ya başqa islahatların ağır nəticələri ilə hesablaşmırdı.

Poemada Böyük Pyotrun ziddiyyətli obrazını yaradan A.S.Puşkin imperatorun düşüncələrinin əzəməti ilə fəxr edərək giriş hissədə yazır:

*Təbiət elə qurulub ki,*
*Avropaya pəncərə açarıq.*
*Dənizə basarıq ayağımızı*
*Ən yeni dalğalarla.*
*Bayraqlar qonağımız olar,*
*Onlara azadlıq bəxş edərik.*

Ardınca təfsilat başlayır. Peterburq bu gün də I Pyotrun abidəsi kimi qəbul olunur. Şair qeyd edir ki, I Pyotr böyük iş görmüşdür, "meşələrin qaranlığından, bataqlıqdan" bu cür, böyük, geniş "gənc paytaxt önündə susdu qoca Moskva" şəhər yaratmışdır. Məlum olduğu kimi, şəhər öz yaradıcısı Böyük Pyotrun deyil, imperatorun dini hamisi, müqəddəs apostol Pyotrun şərəfinə Peterburq adlanmışdır. A.S.Puşkin şəhər və onun banisini əlaqələndirir, onu "Pyotrun yaratdığı", "Petroqrad", "Ellin mədəniyyətinə" sirayət edərək Petropol adlandırırdı. A.S.Puşkin şəhərin yaranmasında imperatorun əməyini qeyd edərək şəxsi fəxarətini dilə gətirir .

*Sevirəm səni, Pyotrun əsəri,*
*əzəmətli, gözəl görünüşünü,*
*Nevanın dalğalarını,*
*Qranit sahillərini,*
*Yuxusuz gecələrini...*

Qeyd edək ki, "Tunc atlı" poemasında müəllifin obrazının təsviri təsadüfi deyil. Peterburq A.S.Puşkinin tərcümeyi-halı ilə sıx əlaqədardır. Liseyi bitirdikdən sonra Puşkin öz valideynləri ilə bərabər Peterburqun kənarında, Fontankada, Puşkinin dostu olan, şəhərin digər sonunda yaşayan Turgenevlər ailəsinin qohumu, dəniz kapitanı Klokaçevin evində yerləşdi. Klokaçevin evi Kalinken körpüsünə yaxın, "Sakit kolomna" da yerləşirdi, dörd qülləsi olan ev bu rayondakı xırda evlər arasında dərhal nəzərə çarpırdı.

20-ci illərin sonunda Puşkinin Peterburqdakı həyatı ona yaradıcılıq üçün yeni mövzular yaratmasına rəvac verirdi. Puşkini şəhərin tarixi taleyi maraqlandırırdı. Peterburq şəhərinin tarixi və su ünsürü ilə mübarizə birbaşa bu məsələyə əlaqəlidir. Müntəzəm baş verən daşqınlar nəticəsində şəhərin banisi, Peterburqu "bataqlıqdan çıxararaq" açıq şəkildə su ilə mübarizəyə başlayır. Poemada əsas yeri 7 noyabr 1824-cü ildə baş verən daşqınlar tutur - o zaman su orta səviyyədən 421 sm hündürə qalxmışdı. Hal-hazırda yaranan daşqın zamanı suyun 210 sm qədər qalxması təhlükəli, 299 sm qədər xüsusilə təhlükəli, 300 sm-dən yüksək olduqda faciəli hesab olunur.

Əgər əsərdə Peterburqun ideal, utopik təntənəli dünyası təsvir olunursa, qəza Böyük Pyotr tərəfindən yaranan dünyanı dərk etməyə yardım edir. Bu təsvirdə Peterburqun daşla tikilmiş müntəzəm mərkəzdən kənarda kasıb şəhərətrafını , "şadlıq edən xoşbəxtlərdən" başqa sadə camaatın olması haqqındakı "digər" cizgiləri nəzərə çatdırılır. Bu Peterburq "dənizin altında" yerləşir, ünsürün zərbələrindən zədələnib. A.S.Puşkinin oxucular üçün çəkdiyi görüntü dəhşətlidir...

Həqiqətən də 1824-cü ilin noyabrda Sankt-Peterburq və onun kənarlarında, Nevanın dalğalanan sularında on mindən çox insan boğulmuşdu. Bu, Neva çayının tarixində ən dəhşətli daşqındır. Lakin, bəzi mənbələrə görə Peterburqda daşqınlar tez-tez olurdu və onlardan birincisi şəhərin salınmasından cəmi üç ay sonra baş vermişdi. Lakin bu daşqında çox sayda qurbanlar və itkilər olmadı, öhdəsindən asan şəkildə gəlindi. A.S.Puşkinin yazdığına görə qəza nəticəsində artan suyun artığını kareta və atlarla daşıyırdılar. Kasıbların evləri kimi, aristokratların evlərini də su basmışdı. Bəzi kifayət qədər möhkəm olmayan tikililər öz təməlindən uçmuşdu. Demək olar ki, Qış sarayı da daxil olmaqla bütün binalar birinci mərtəbədən tavana qədər su ilə dolu idi. Lakin "Tunc atlı"dakı sel özündə Peterburqun tarixi faktlarının qiymət yükünün deyil, baş qəhrəmanların obrazlarının tam çözülməsi üçün vasitədir. Məhz daşqın poemada islahatçı-çarın uzaqgörən olmadığını aydın göstərir və A.S.Puşkin tərəfindən birbaşa deyil, hadisələrin nəticəsi fonunda ifadə olunur.

Hesab etmək olar ki, A.S.Puşkin I Pyotrun Rusiya dövlətini avropalaşdırmaq əyləncəsinin gətirəcəyi zərəri anlayır. Şair öz "Poltava" və "Tunc atlı" tarixi poemalarının qəhrəmanını yüksək qiymətləndirərək, onun fəaliyyətini, müsbət və mənfi tərəflərinin qəfil yerdəyişmələrini qeyd edərək tam şəkildə xarakterizə edirdi.

**İnternet materialları əsasında rus dilindən tərcümə edən - Xatirə Nurgül**